Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

18-ci cild

27 dekabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

**YEDDİNCİ ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**I SESSİYASI İCLASININ**

# PROTOKOLU № 19

*Milli Məclisin iclas salonu.*
*27 dekabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 120 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 116 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Elnur Məmmədov**, Azərbaycan Respublikası xarici işlər nazirinin müavini.

**Hüseyn Hüseynov**, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Hüquqi Təminat İdarəsinin rəisi.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikası Hökuməti ilə Maldiv Respublikası Hökuməti arasında diplomatik, xidməti və

rəsmi pasport sahiblərinin qarşılıqlı viza tələbindən azad edilməsi haqqında Saziş”in təsdiq edilməsi barədə” Azərbaycan Respublikası qanununun layihəsi.

2. “Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında müdafiə sahəsində hərbi əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. Diplomatik xidmət haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Sosial sığorta haqqında”, “Dövlət qulluğu haqqında”, “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Psixiatriya yardımı haqqında”, “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. “Avtomobil yolları haqqında” Azərbaycan Respubli-

kasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. “Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”, “İnsan alverinə qarşı mübarizə haqqında” və “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

9. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

10. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

11. “Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında”, “Valyuta tənzimi haqqında”, “Xidməti və mülki silah haqqında”, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında”, “Notariat haqqında”, “İcra məmurları haqqında”, “İcra haqqında”, “Lotereyalar haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “Media haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respubli-

kası qanununun layihəsi (ikinci oxunuş).

12. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Tibbi sığorta haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. "Qaz təchizatı haqqında", "Dövlət rüsumu haqqında", "İxrac nəzarəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında", "Elektroenergetika haqqında" və "Energetika haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

15. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

16. “Kitabxana işi haqqında” və “Muzeylər haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**1. “Azərbaycan Respublikası Hökuməti ilə Maldiv Respublikası Hökuməti arasında diplomatik, xidməti və rəsmi pasport sahiblərinin qarşılıqlı viza tələbindən azad edilməsi haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov, Aydın Mirzəzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
| Lehinə | 115 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**2. “Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında müdafiə sahəsində hərbi əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.16 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |

Nəticə: Qəbul edildi

**3. Diplomatik xidmət haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

**4. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Sosial sığorta haqqında", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Azər Əmiraslanov, Səməd Seyidov, Elnur Məmmədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Mə-**

**cəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Əli Hüseynli, Əhliman Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.29 dəq.) |
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**6. "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.30 dəq.) |
| Lehinə | 117 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

**7. "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.33 dəq.) |
| Lehinə | 120 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 120 |
| Nəticə: Qəbul edildi | |

**8. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Hicran Hüseynova, Zahid Oruc

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.33 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.34 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.35 dəq.) |
|---|---|
| Lehinə | 120 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 120 |

Nəticə: Qəbul edildi

**11. "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Valyuta tənzimi haqqında", "Xidməti və mülki silah haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Lotereyalar haqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Arzu Nağıyev, Elşən Musayev, Zahid Oruc

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–5-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

**Təklif:** 6–10-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi**

**köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Tibbi sığorta haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Elşən Musayev, Əhliman Əmiraslanov, Zahid Oruc, Azər Əmiraslanov, Anar İsgəndərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

Səs vermədi 1
İştirak edir 118
Nəticə: Qəbul edildi

**Təklif:** 5–8-ci maddələr qəbul edilsin
**Səsvermənin nəticələri** (saat 11.44 dəq.)
Lehinə 116
Əleyhinə 0
Bitərəf 0
Səs vermədi 0
İştirak edir 116
Nəticə: Qəbul edildi

**Təklif:** 9–12-ci maddələr qəbul edilsin
**Səsvermənin nəticələri** (saat 11.45 dəq.)
Lehinə 113
Əleyhinə 0
Bitərəf 0
Səs vermədi 2
İştirak edir 115
Nəticə: Qəbul edildi

**Təklif:** 13–17-ci maddələr qəbul edilsin
**Səsvermənin nəticələri** (saat 11.45 dəq.)
Lehinə 116
Əleyhinə 0
Bitərəf 0
Səs vermədi 0
İştirak edir 116
Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin
**Səsvermənin nəticələri** (saat 11.45 dəq.)
Lehinə 118

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

**13. "Qaz təchizatı haqqında", "Dövlət rüsumu haqqında", "İxrac nəzarəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında", "Elektroenergetika haqqında" və "Energetika haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Sadiq Qurbanov, Siyavuş Novruzov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 4–7-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**14. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

**15. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası**

**qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Siyavuş Novruzov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 120 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 120 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 119 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**16. “Kitabxana işi haqqında” və “Muzeylər haqqın-**

**da" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Polad Bülbüloğlu

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 120 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*27 dekabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük. Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 116 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus olan sərnişin təyyarəsi dekabrın 25-də Bakı–Qroznı reysini yerinə yetirərkən Qazaxıstanın Aktau şəhəri yaxınlığında faciəli şəkildə qəzaya uğramışdır. Nəticədə çoxsaylı insan tələfatı və xəsarət alanlar var.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin sərəncamı ilə dünən ölkə ərazisində matəm elan edilmişdir.

Hörmətli həmkarlar, bildiyiniz kimi, dövlət başçısının sərəncamı ilə qəzanın səbəblərini araşdırmaq üçün Dövlət komissiyası yaradılmışdır. Möhtərəm cənab Prezidentin tapşırığına əsasən komissiya baş vermiş faciəli hadisəni hərtərəfli araşdırıb qəzanın səbəblərini dəqiq müəyyən edəcək və ictimaiyyətə məlumat verəcəkdir.

Biz təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət diləyir, onların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. Yaralıların tezliklə sağalmasını arzulayırıq.

Hörmətli həmkarlar, xahiş edirəm, gündəliyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Gündəliyin məsələlərinə keçirik. Bizim gündəliyimizdə bu gün 16 məsələ var. Qeyd edim ki, gündəliyin ilk 2 məsələsi beynəlxalq sənədlərin təsdiq edilməsi haqqında qanun layihələridir. Odur ki, bu qnaun layihələri "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək.

Beləliklə, gündəliyin 1-ci məsələsinə keçirik. Bu məsələ "Azərbaycan Respublikası Hökuməti ilə Maldiv Respublikası Hökuməti arasında diplomatik, xidməti və rəsmi pasport sahiblərinin qarşılıqlı viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, bu məsələni özünüz təqdim edəcəksiniz. Buyurun.

**Səməd Seyidov**, *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Bütün qitələrlə, bütün ölkələrlə, o cümlədən Maldiv Respublikası ilə əlaqələrimiz geniş şəkildə inkişaf edir. Hörmətli xanım sədr, Siz, yəqin ki, həmkarlarımız da xatırlayır, fevral ayında Asiya Parlament Assambleyasının İcraedici Şurasının iclasında Maldiv Respublikasının spikerini Azərbaycanda ən yüksək səviyyədə qəbul etmişdiniz. Biz indi görürük, COP29 nə dərəcədə əhəmiyyətlidir, həmin beynəlxalq tədbirdə Maldiv Respublikasının Prezidenti şəxsən iştirak etmişdir və Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul olunmuşdur. Ən yüksək səviyyədə əlaqələrin təşkil olunması haqqında söhbətlər getmişdir.

Bu gün ölkələrimiz arasında artıq 4 sənəd imzalanıb. Siz bilirsiniz, o sənədlərin içərisində biz bu gün müzakirə və təsdiq edəcəyimiz diplomatik və xidməti pasportların sahiblərinin vizadan azad olunması ilə bağlı sənəd də vardı. Bununla yanaşı, qeyd etmək istəyirəm ki, biz Maldiv Respublikası ilə ümumvətəndaş pasportlarının da sahiblərinin vizadan azad olunması məsələsini müzakirə

edirik. Bu, özlüyündə Azərbaycan pasportunun dünyada nə dərəcədə yüksək səciyyədə qəbul olunmasını göstərir. Biz şahidiyik.

Bir də bu məlumatı çatdırmaq istəyirəm. Artıq 85 ölkə ilə faktiki vizasız rejimi qəbul etmişik. Onlardan 20 ölkə ilə ümumvətəndaş pasportlarının sahiblərinin də gediş-gəlişi təşkil edilə bilir. Maldiv Respublikası ilə həm turizm, həm iqtisadiyyat, həm iqtisadi əlaqələr, həm də ən vacibi, beynəlxalq səviyyədə mühüm məsələlərdə qarşılıqlı dəstək məsələsi də müzakirə olunub. Ona görə bu qanun layihəsi komitəmizdə yekdilliklə müsbət qarşılanıb və sizdən də müsbət rəy bildirməyinizi xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Səməd müəllim. Çıxış etmək istəyən var. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. Vaxtaşırı parlamentdə biz ayrı-ayrı ölkələrlə viza rejiminin ləğv edilməsi barəsində sazişləri təsdiq edirik. Bu gün də Maldiv Respublikası ilə sazişin təsdiqi bir daha göstərir ki, Azərbaycan dünya birliyində yüksək nüfuz qazanmaqdadır və günü-gündən bizimlə viza rejimi ləğv edilən ölkələrin sayı artmaqdadır. Əlbəttə, əvvəlcə xüsusi pasporta sahib olan şəxslərlə bağlı saziş imzalanır və sonradan isə artıq, ümumən, viza rejiminin ləğv edilməsi barəsində sazişlərin artacağını gözləyirik, çünki dünya Azərbaycanla münasibətlərin onun xeyrinə olduğunun, ikitərəfli və beynəlxalq münasibətlərə təsir etdiyinin fərqindədir.

Srağagün baş verən təyyarə qəzasından sonra qonşu, dost, qardaş Qazaxıstanın Azərbaycanın bu ağır dərdinə nə cür həssas yanaşdığının biz şahidi olduq. Sadə insanların

qan vermək üçün növbəyə durmaları, sosial şəbəkədə Azərbaycana dəstək ifadə etmələri özü iki dövlət arasında qardaşlığı, dostluğu göstərir. Bu onu göstərir ki, cənab Prezidentimizin türk birliyi çağırışı türk dünyasında necə əks-səda tapmaqdadır.

Cənab Prezidentimizə Azərbaycan xalqının çoxsaylı başsağlığı teleqramları, xanım sədr, Sizin özünüzlə Türkiyə Parlamentinin sədrinin danışmasının özü də Azərbaycanın bu dərdinə dostlarımızın nə cür şərik olduğunu göstərir. Düzdür, gözlənilməz halda heç bir münasibətimizin olmadığı, sülh müqaviləsinin olmadığı Ermənistan rəhbərindən də başsağlığı gəlir. Əgər Ermənistan dərk edirsə ki, Azərbaycanla münasibətlər olduqca vacibdir, bunu ancaq təqdir etmək olar. Amma sonrakı addımlar onlardan asılıdır.

Bu sazişə səs verəcəyəm, ümumən götürdükdə, belə sazişlərin Azərbaycanın nüfuzunun artmasının göstəricisi olduğunu bildirmək istəyirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, xahiş edirəm, məsələyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələ "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında müdafiə sahəsində hərbi əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev**, *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında müdafiə sahəsində hərbi əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi ilə bağlı qanun layihəsi cənab Prezidentin imzası ilə daxil olub və bir oxunuşda təsdiq edilməlidir. Qeyd etmək istərdim ki, Azərbaycan Respublikasının müdafiə naziri "Mərakeş Aviaşou 2024" sərgisində iştirakı vaxtı Azərbaycan və Mərakeş arasında hərbi, hərbi-texniki əlaqələrin inkişaf perspektivləri müzakirə edilib, fikir mübadiləsi aparılıb və Azərbaycan hökuməti adından müdafiə naziri ilə Mərakeşli həmkarı arasında təqdim olunan saziş imzalanıb. Saziş 13 maddədən ibarətdir.

Hörmətli həmkarlar, qeyd etmək istərdim ki, iki ölkə arasında diplomatik münasibətlər 1992-ci ildən mövcuddur, münasibətlərimiz beynəlxalq təşkilatlar, BMT, İslam Əməkdaşlığı Təşkilatı çərçivəsində inkişaf etdirilmişdir. Parlamentlərarası işçi qrupu fəaliyyət göstərir, aramızda ümumvətəndaş pasportunun sahiblərinin viza tələblərindən azad edilməsi haqqında saziş, ətraf mühit və dayanıqlı inkişaf sahələrində əməkdaşlıq da var. Memorandum, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında da

sazişlər mövcuddur. Mərakeş Krallığı Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyən dövlətdir. Qanun layihəsi komitədə müzakirə olunub və plenar iclasa tövsiyə edilib. Dəstəkləməyinizi xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Arzu müəllim, sağ olun. İkinci komitədə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Səməd müəllim, buyurun, komitənin rəyini bildirin.

**Səməd Seyidov**. Çox sağ olun, hörməti xanım sədr. Arzu müəllim qanun layihəsini geniş, ətraflı təqdim etdi. Mən, sadəcə, iki faktı da sizin diqqətinizə çatdırmaq istəyirəm. Doğrudan da, Azərbaycan–Mərakeş münasibətləri ən yüksək səviyyədə inkişaf edir. Biz 2022-ci ilin iyun ayında Mərakeş Krallığının Nümayəndələr Palatasının sədrinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakıda keçirilən Birinci Konfransında iştirakını da burada qeyd etməliyik. Bundan başqa, 2023-cü ildə Azərbaycan Respublikası Milli Məclisinin sədri, hörmətli Sahibə xanım, Sizin Mərakeş Krallığına rəsmi səfəriniz də həyata keçirilib. 2024-cü ildə, daha doğrusu, 2023-cü ildə Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xüsusi iclasında Mərakeşin Nümayəndələr Palatasının sədri də iştirak edib.

Görürsünüz, əlaqələr nə dərəcədə genişdir, xüsusi ilə parlament səviyyəsində. Arzu müəllim qeyd etdi, həmin o hərbi şouda da bizim müdafiə nazirimiz iştirak edib. Ona görə bu qanun layihəsi komitəmizdə yekdilliklə müsbət qarşılanıb və buna müsbət, lehinə səs verməyinizi sizdən xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Səməd müəllim. Görürəm, çıxış etmək istəyən yoxdur və mən qanun layihəsini səsə

qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.16 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 8 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Qeyd edim ki, növbəti iki məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və bildiyiniz kimi, mahiyyətcə də bir-birinə yaxındır. 3-cü məsələ Diplomatik xidmət haqqında qanun layihəsidir, 4-cü məsələ isə xatırladım, Əmək Məcəlləsində, Vergi Məcəlləsində, "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında" Qanunda və digər 4 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Hörmətli həmkarlar, onu da deyim ki, bu məsələlərlə əlaqədar Azərbaycan Respublikası xarici işlər nazirinin müavini hörmətli Elnur müəllim Məmmədov və nazirliyin Hüquq Təminatı İdarəsinin rəisi hörmətli Hüseyn müəllim Hüseynov yenə də iclasımızda iştirak edirlər. Mən qonaqlarımızı bir daha salamlayıram.

Hörmətli həmkarlar, təklif edirəm ki, ötən iclaslarda olduğu kimi, biz əvvəlcə qanun layihələrinin təqdimatını dinləyək, daha sonra o biri prosedurlara keçək.

3-cü məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək

üçün mən komitənin sədri hörmətli Əli Hüseynliyə söz vermək istəyirəm. Əli müəllim, buyurun, bu məsələ ilə bağlı məlumat verin.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Hörmətli Sahibə xanım, ilk növbədə mən Sizə təşəkkür etmək istəyirəm ki, bu vacib qanun layihəsinin müzakirəsi üçün çox yaxşı bir şərait yarandı. Komitələrin geniş iclası olmuşdu, bu barədə birinci oxunuşda məlumat vermişdim. Birinci oxunuşda parlament müzakirəsi zamanı çıxışla bağlı müraciət edən bütün deputatlara şərait yaradıldı və onlar öz fikirlərini söylədilər. İkinci oxunuş zamanı bizim qısa bir fikir mübadiləmiz olmuşdu və qərarlaşdıq ki, bir sıra məsələləri işçi qaydasında həll edək və belə də etdik. Mən həm də fürsətdən istifadə edib Milli Məclisin sədrinin hörmətli müavinləri Ziyafət müəllimə, Musa müəllimə təşəkkür edirəm ki, bizim müzakirəmiz çox konstruktiv və qarşılıqlı anlam şəraitində baş verdi. Eyni zamanda, həmkarım hörmətli Səməd müəllimə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin bütün üzvlərinə təşəkkür edirəm. Çünki Hüquq siyasəti və dövlət quruculuğu komitəsi olaraq biz onlarla birlikdə çalışdıq və demək olar ki, aramızda hər hansı fikir ayrılığı olmamışdır.

Bir daha vurğulamaq istəyirəm ki, qanun layihəsi hazırlanarkən işçi qrupu, qanunvericilik təşəbbüsü subyekti çox düzgün bir taktika seçmişdir. Onlar, söylədiyim kimi, dövlət qulluğunun xüsusi növlərini tənzimləyən qanunvericilik aktlarına uyğun olaraq, Diplomatik xidmət haqqında qanun layihəsi hazırlamışlar. Ona görə sualların

bir çoxunun cavabı ya qanun layihəsinin özündə, ya da əsas qanun olan "Dövlət qulluğu haqqında" Qanunda idi. Bir sıra məsələlər vardı ki, təklif olunmuşdu, o məsələlər hazırda işlənib hazırlanan Xarici İşlər Nazirliyinin Əsasnaməsində öz həllini tapacaq.

Beləliklə, bir daha təşəkkür edirəm, işçi qrupunun rəyi, fikri ilə həmkarlarımız razılaşıblar və yeganə o qeydi demək istəyirəm ki, qanunvericilik subyekti tərəfindən bir sıra texniki, redaktə xarakterli düzəlişlər edilmişdir, onlar da hörmətli həmkarların diqqətinə çatdırılıb, yəni təqdim olunmuşdur. Eyni zamanda, sonda mən Xarici İşlər Nazirliyindəki hüquqşünas həmkarlarıma da təşəkkür etmək istəyirəm ki, bu işdə bizimlə birlikdə olublar, yaxından iştirak ediblər. Hesab edirəm ki, birgə əməyimizin nəticəsi olan Diplomatik xidmət haqqında tam mükəmməl qanun layihəsini indi artıq səsverməyə təqdim etmək mümkündür. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, indi 4-cü məsələni, mən istəyirəm ki, Musa müəllim bizə təqdim etsin, çünki Musa müəllimin rəhbərlik etdiyi komitədə, Əmək və sosial siyasət komitəsində baxılıb. Musa müəllim, buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Əmək Məcəlləsində və daha 7 qanunda təklif olunan dəyişikliklər Diplomatik xidmət haqqında qanun layihəsinə uyğunlaşdırma xarakteri daşıyır. Layihənin məzmunu və məqsədi barədə əvvəlki oxunuşda ətraflı məlumat verilmişdir. Komitəyə təkliflər daxil olmamışdır. Layihənin mətnində dəyişiklik yoxdur, olduğu kimi səsə

qoymağınızı xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bu məsələyə, 4-cü məsələyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün mən hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, Vergi Məcəlləsində dəyişiklik edilməsi də uyğunlaşdırma xarakteri daşıyır. Bunu nəzərə alaraq, biz də bu mərhələdə bu qanun layihəsinin dəstəklənməsini hörmətli həmkarlarımızdan xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, hər iki qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılmışdır. Səməd müəllim, sözü Sizə verirəm, buyurun, komitənin rəyini bildirin.

**Səməd Seyidov.** Çox sağ olun, hörmətli xanım sədr. Mən hörmətli Əli müəllimin sözlərinə qoşuluram. Həm ona, həm də komitənin üzvlərinə konstruktiv fikir mübadiləsinə görə dərin təşəkkürümü bildirirəm. Eyni zamanda, hörmətli Ziyafət müəllimə, Musa müəllimə dərin minnətdarlığımı bildirirəm ki, onların da təklifləri dəyərli və yüksək səviyyədə nəzərə alınan təkliflər kimi qəbul olunmuşdur. Eyni zamanda, Xarici İşlər Nazirliyinin nümayəndələrinə bir də öz təşəkkürümü bildirmək istəyirəm. Həm nazir müavini Elnur müəllimə, həm hüquqşünaslara, Hüseyn müəllimə.

Doğrudan da, biz Diplomatik xidmət haqqında qanun layihəsini yeni mərhələyə yüksəltdik. Sahibə xanım,

burada Sizin rolunuz da xüsusi qeyd olunmalıdır ki, Siz xüsusi şərait yaratdınız və biz açıq, işgüzar şəraitdə bütün qaldırılan məsələləri müzakirə etmək imkanına malik olduq. Biz bu gün tamamilə yeni, yüksək səviyyədə hazırlanmış və diplomatik fəaliyyətimizi ən yüksək səviyyədə təşkil edəcək bir qanun layihəsini müzakirə edirik. Bu, o cümlədən parlament diplomatiyasına da ciddi təsir göstərəcək, əlaqələrimiz daha da yüksək səviyyədə təşkil olunacaq. Ona görə bu qanun layihəsinin ərsəyə gəlməsində iştirak etmiş bütün insanlara təşəkkürümüzü bildiririk.

Eyni zamanda, 4-cü məsələ ilə də bağlı biz öz müsbət rəyimizi komitə səviyyəsində bildirmişik. Həmkarlardan xahiş edirik, hər iki qanun layihəsini dəstəkləsinlər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Səməd müəllim. Heç kimin sözü, sualı yoxdur. Mən qanun layihələrini bir-bir səsə qoyacağam. Xahiş edirəm, indi 3-cü məsələdəki qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 4-cü məsələdəki qanun layihəsinə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.24 dəq.) |
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, mənə dedilər ki, hörmətli Elnur müəllim söz istəyir. Elnur müəllim, buyurun. Azərbaycan Respublikası xarici işlər nazirinin müavini hörmətli Elnur Məmmədov. Buyurun.

**Elnur Məmmədov,** *Azərbaycan Respublikası xarici işlər nazirinin müavini.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli media mənsubları. İlk növbədə 2 gün öncə baş vermiş dəhşətli qəza nəticəsində həlak olan şəxslərə Allahdan rəhmət diləyir, ailələrinə və doğmalarına başsağlığı verir, yaralılara şəfa arzulayırıq.

Bu gün Azərbaycan Respublikası Milli Məclisinin plenar iclasında diplomatik xidmət orqanları üçün böyük əhəmiyyət kəsb edən Diplomatik xidmət haqqında Azərbaycan Respublikası qanununun layihəsi müzakirə olunaraq artıq üçüncü oxunuşda qəbul edildi. Bu münasibətlə ilk növbədə qanunvericilik təşəbbüsü hüququndan istifadə edərək bu qanun layihəsini Milli Məclisə təqdim etmiş möhtərəm cənab Prezidentə diplomatik xidmət orqanları əməkdaşları adından dərin təşəkkürümüzü bildirirəm.

Bildiyiniz kimi, Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının fəaliyyəti və həmin orqanlarda xidmət keçən əməkdaşların təminatı ölkə rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır və bu sahəyə xüsusi qayğı göstərilir. Diplomatik xidmət əməkdaşları bu diqqət və qayğının məsuliyyətini anlayaraq cənab Prezident tərəfindən uğurla davam etdirilən xarici siyasətimizin həyata keçirilməsindən irəli gələn vəzifələrin icrası üçün öz bilik və bacarıqlarını əsirgəmirlər. Hesab edirik ki, bu gün qəbul edilən bu qanun layihəsi diplomatik xidmət sahəsində fəaliyyətin daha səmərəli təşkilinə və müxtəlif məsələlərin hüquqi əsasla vahid tənzimlənməsinə böyük töhfə verəcəkdir.

Hörmətli xanım sədr, bu qanun layihəsinin qəbulunda göstərilən dəstəyə görə, Siz başda olmaqla bütün millət vəkillərinə Azərbaycan Respublikasının xarici işlər naziri və nazirliyin kollektivi adından dərin təşəkkürümüzü bildiririk.

Fürsətdən istifadə edərək qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə sizləri ürəkdən təbrik edir, fəaliyyətinizdə daim uğurlar arzulayırıq. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Elnur müəllim. Biz Xarici İşlər Nazirliyi ilə mütəmadi olaraq əlaqədəyik. Bir yerdə işləyirik və yenə də işimizə davam edəcəyik. Sağ olun.

Hörmətli həmkarlar, gündəliyimizin növbəti məsələsinə keçirik. 5-ci məsələdir. Bu məsələ Cinayət Məcəlləsində və daha 2 məcəllədə, “Əhalinin sağlamlığının qorunması haqqında” Qanunda və digər 4 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmış-

dır. Məsələyə dair məlumat vermək üçün Arzu müəllim, yenə də Sizə söz verirəm. Buyurun, məlumat verin.

**Arzu Nağıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media mənsubları. Qanun layihəsi birinci və ikinci oxunuşlarda tam şəkildə müzakirə edilmiş, verilən rəy və təkliflərə görə, həm fərdi, həm ekspertlərlə, həm də səfərbərliklə, çağırışla bağlı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbərliyi ilə görüşlər keçirilmiş və Sizin də tövsiyənizə uyğun olaraq, ekspertlər öz fikirlərini bildirmişlər. Komitəmiz tərəfindən yekdilliklə üçüncü oxunuşa təklif olunur. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bu qanun layihəsinə 2 komitədə də baxılmışdır. Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Əli müəllim, xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**Əli Hüseynli.** Hörmətli sədr, Hüquq siyasəti və dövlət quruculuğu komitəsi lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. Səhiyyə komitəsində də baxılmışdır. Komitənin sədri hörmətli Əhliman Əmiraslanova söz vermək istəyirəm. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, həmkarlar. Səhiyyə komitəsi də bu qanun layihəsini dəstəkləyir. Səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

**Səsvermənin nəticələri** (saat 11.29 dəq.)

| | |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələmiz "Avtomobil yolları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Azər müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun, məlumat verin.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, bu qanun layihəsi ilə bağlı həm birinci, həm də ikinci oxunuşlarda ətraflı məlumat verilmişdir. Layihəyə dair hörmətli həmkarlarımız tərəfindən hər hansı qeyd, təklif olmamışdır və layihəyə dəyişiklik edilməmişdir. Bunu nəzərə alaraq, qanun layihəsinin üçüncü oxunuşda olduğu kimi səsə qoyulmasını Sizdən xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, sözü, sualı olan yoxdur. Qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.30 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 119 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələmiz, əslində, növbəti iki məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Bunlar da mahiyyətcə bir-birinə yaxındırlar.

7-ci məsələ "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Qanunda, 8-ci məsələ isə Ailə Məcəlləsində və daha 2 məcəllədə və 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Yenə də təklif edirəm, biz qanun layihələrinin təqdimatlarını dinləyək, sonra isə növbəti prosedurlara keçək. Qeyd edim ki, layihələrə 3 komitədə baxılmışdır. Mən indi həmin komitələrin sədrlərinə və təmsilçilərinə söz verəcəyəm. 7-ci məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Keçən dəfə də bizdə komitənin üzvü hörmətli Bəhruz Məhərrəmov məlumat vermişdi. Bəhruz müəllim, buyurun, bu dəfə də məlumatı Siz verirsiniz.

**Bəhruz Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Birinci və ikinci oxunuşlarda layihə ilə bağlı ətraflı məlumat verilib. Çox təşəkkür edirik ki, parlamentdə, daha sonra işgüzar qaydada qaldırılan məsələlərlə bağlı müzakirələr aparılıb. Ona görə də layihənin olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Bəhruz müəllim, xahiş edirəm, Siz 8-ci məsələ ilə bağlı da birdəfəlik məlumat verin.

**Bəhruz Məhərrəmov.** Hörmətli xanım sədr, həmin məsələ ilə bağlı komitəmizin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Bəhruz müəllim, çox sağ olun. 8-ci məsələyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Ona görə də mən indi hörmətli Hicran xanım Hüseynovaya söz vermək istəyirəm. Hicran xanım, buyurun.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

İki qanuna, 7-ci, 8-ci məsələlərə komitədə baxılıb. Rəy müsbətdir. Xahiş edirik, səsə qoyulsun. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Hər iki qanun layihəsinə, Zahid müəllim, sizin komitənizdə, İnsan hüquqları komitəsində də baxılıb. Xahiş edirəm, komitənin rəylərini bildirin.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli sədr. Dəyərli millət vəkilləri, qeyd olunduğu kimi, yetkinlik yaşına çatmayanların işləri üzrə komissiyanın fəaliyyəti ilə bağlı “yetkinlik yaşına çatmayan” ifadəsinin “uşaq” termini ilə əvəz olunmasından tutmuş, mahiyyət etibarı ilə dəyişikliklərdir, mütərəqqidir. İki oxunuşda dəyişiklik edilməsi üçün hər hansı əlavə təklif olmayıb. Bu formada da səsə qoya bilərik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihələrini bir-bir səsə qoyacağam. İndi xahiş edirəm, 7-ci məsələdəki qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.33 dəq.) |
| --- | --- |
| Lehinə | 120 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 120 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə növbəti məsələni, 8-ci məsələdəki qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.33 dəq.) |
| --- | --- |
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti məsələmiz 9-cu məsələdir. Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Əli müəllim, yenə də özünüz məlumat verəcəksiniz. Buyurun, Sizi eşidirik.

**Əli Hüseynli.** Hörmətli sədr, hörmətli həmkarlar, ikinci oxunuş zamanı təkliflərlə bağlı münasibət bildirmişdim. Üçüncü oxunuşa təqdim olunmuş layihədə heç bir də-

yişiklik edilməmişdir. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Hörmətli həmkarlar, sözü, sualı olan yoxdur. Qanun layihəsini səsə qoyuram. Buyurun, üçüncü oxunuşda səs verin.

| **Səsvermənin nəticələri** | (saat 11.34 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Qanun layihəsi barədə məlumatı komitənin üzvü hörmətli Nurlan Həsənov verəcək. Buyurun.

**Nurlan Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Layihə barədə hər iki oxunuş zamanı məlumat verilmişdir. İkinci oxunuş zamanı hörmətli Ziyafət müəllimin qaldırdığı məsələ qanunvericilik təşəbbüsü subyekti ilə müzakirə edilmişdir. Qanun layihəsinin mətnində hər hansı bir dəyişiklik yoxdur. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.35 dəq.) |
|---|---|
| Lehinə | 120 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 120 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 6 məsələ qalır. Bu məsələlərin hamısı ikinci oxunuşda olan qanun layihələridir. 11-ci məsələ, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Qanunda və digər 9 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün Azər müəllim, Sizdən xahiş edirəm, buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, təqdim olunan qanun layihəsi, əslində, 10 qanunvericilik aktında dəyişikliyi nəzərdə tutur. Mahiyyət etibarı ilə bu qanunlarda dəyişikliklər daha çox dövlət qurumları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin elektronlaşdırılması ilə bağlıdır. Bu, dövlət qurumları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin artırılmasına, o cümlədən elektron hökumətin inkişafına xidmət edir, töhfə verir.

Qanun layihəsi barədə birinci oxunuşda ətraflı məlumat verilmişdir. Hörmətli həmkarlarımız tərəfindən layihə ilə bağlı hər hansı qeyd və təklif olmamışdır. Bunu nəzərə

alaraq, ikinci oxunuşda da qanun layihəsinin həmkarlarımız tərəfindən dəstəklənməsini xahiş edirəm.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə daha 3 komitədə baxılmışdır. Birinci komitə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi, Arzu müəllim, sizin komitənizdir. Buyurun, məlumat verin.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Komitənin profilinə uyğun olaraq, qanun layihəsində "Xidməti və mülki silah haqqında" Qanunda dəyişikliklə bağlı məsələdir. Burada "Mülki silahın əldə edilməsi" adlı 9-cu maddəyə olan əlavə ilə bağlıdır. Azər müəllimin də qeyd etdiyi kimi, əsasən, Elektron Hökumət İnformasiya Sistemi vasitəsi ilə sənədlərin və digər məlumatların əldə olunması ilə bağlıdır.

Birinci oxunuşda hər hansı bir sual olmayıb. Eyni zamanda, komitəmiz tərəfindən ikinci oxunuşa təklif edilmişdir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Arzu müəllim, çox sağ olun. Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Komitənin rəyini hörmətli Elşən Musayev verəcək. Elşən müəllim, buyurun.

**Elşən Musayev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, xanım sədr. Komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. İnsan hüquqları komitəsində də baxılmışdır. Zahid müəllim, buyurun, Siz də komitənin rəyini bildirin.

**Zahid Oruc.** Hörmətli sədr, bizim profil üzrə "Media haqqında" Qanunun 52.3-cü maddəsində dəyişiklikdir.

Bilirsiniz ki, media subyektləri müxtəlif müsabiqələrdə iştirak edirlər. Azər müəllimin qeyd etdiyi kimi, bu elektron xidmətlər həmin sahəyə də şamil olunur. Ona görə də mütərəqqi dəyişikliklərdir. Komitəmiz layihənin lehinədir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur, ona görə də qanun layihəsini əsas kimi qəbul etməliyik. İndi isə xahiş edirəm, bu məsələyə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Yazılanlar yoxdur. Ona görə də mən qanun layihəsinin səsvermə proseduruna keçirəm. Bilirsiniz ki, biz qanuna ikinci oxunuşda maddələr üzrə, sonra isə bütövlükdə səs veririk. Bu layihədə 10 maddə var. Mən onları beş-beş səsə qoyacağam. Xahiş edirəm, indi birinci 5 maddəyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, birinci 5 maddə qəbul edildi.

İndi isə xahiş edirəm, son 5 maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi, çox sağ olun.

İndi isə qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 118 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu, Əmək Məcəlləsində, Miqrasiya Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda və digər 14 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və

sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Qanun layihəsi barədə birinci oxunuşda ətraflı məlumat verilmişdir və geniş müzakirə aparılmışdır. İkinci oxunuş üçün, sadəcə, xatırlatmaq istəyirəm ki, layihə bir sıra xidmətlərin rəqəmsallaşdırılması və məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim olunmasına hüquqi bazanın yaradılması üçün hazırlanmışdır. Layihə ilə bağlı komitəyə təklif daxil olmamışdır. Layihənin mətnində dəyişiklik yoxdur. İkinci oxunuşda səsə qoymağınızı xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Musa müəllim, sağ olun. Hörmətli həmkarlar, bu qanun layihəsinə daha 5 komitədə baxılıb. Birinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Komitənin rəyini bildirmək üçün yenə də mən hörmətli Elşən müəllimə söz verirəm. Elşən Musayev. Buyurun.

**Elşən Musayev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli millət vəkilləri, bu layihə ilə də bağlı dəyişikliklər komitədə ətraflı müzakirə olunub. Heç bir təklif yoxdur. Olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli Əhliman müəllim, bu məsələyə sizin komitənizdə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin.

**Əhliman Əmiraslanov.** Bu qanun layihəsinə də Səhiyyə komitəsinin münasibəti müsbətdir. Səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. İnsan hüquqları komi-

təsində baxılıb. Zahid müəllim, sözü Sizə verirəm. Buyurun, komitənin rəyini bildirin.

**Zahid Oruc.** Təşəkkür edirəm, hörmətli sədr. Komitəmiz elektron xidmətlərin əhatə dairəsinin genişlənməsini alqışlayır. Ona görə bu formada səsə qoya bilərik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Azər müəllim, xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, komitənin rəyi müsbətdir. Layihəni ikinci oxunuşda da dəstəkləyirik. Sağ olun.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun. Elm və təhsil komitəsində də baxılıb. Komitənin sədri hörmətli Anar İsgəndərova söz vermək istəyirəm. Anar müəllim, buyurun.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Elm və təhsil komitəsinin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Anar müəllim. Hörmətli həmkarlar, biz məlumatları dinlədik. İndi isə qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Mən bu qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Görürəm ki, çıxış etmək istəyən yoxdur. Ona görə səsverməyə keçirik. Hörmətli həmkarlar, birinci, maddələr üzrə səs verəcəyik Bu layihədə 17 maddə var. Mən onları dörd-dörd səsə qoyacağam.

Xahiş edirəm, 1-ci, 2-ci, 3-cü və 4-cü maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

Bu maddələr qəbul edildi, sağ olun.

5-ci, 6-cı, 7-ci və 8-ci maddələri səsə qoyuram. Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

Qəbul edildi, çox sağ olun.

Növbəti 4 maddəyə, yəni 9-cu, 10-cu, 11-ci və 12-ci

maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Maddələr qəbul edildi, çox sağ olun.

5 maddəmiz qalır. Mən onları da səsə qoymaq istəyirəm. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bunlar da qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 118 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz 13-cü məsələdir. "Qaz təchizatı haqqında" Qanunda və digər 5 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun, məlumat verin.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, Sizin də qeyd etdiyiniz kimi, bu qanun layihəsi 6 qanunvericilik aktına dəyişiklikləri nəzərdə tutur. Mahiyyət etibarı ilə layihə barədə birinci oxunuşda ətraflı məlumat verilmişdir.

Bir daha xatırlatmaq istərdim ki, bu qanun layihəsi 3 blok məsələni əhatə edir. Birincisi, rüsumların dövlət tərəfindən inzibatçılığının idarə edilməsinin təkmilləşdirilməsidir. Bununla bağlı elektron rüsum informasiya sistemi tətbiq ediləcək.

İkinci blok məsələlərdə əvvəlki qanunvericilik aktlarında nəzərdə tutulmuş dövlət tərəfindən icazələr üzrə rüsumlar və bu rüsumların məbləğinin müəyyən edilməsi üçün hüquqi əsaslar yaradılır.

Üçüncüsü də, elektron rüsum informasiya sisteminin istismarı, saxlanması üçün müəyyən fondun yaradılması məqsədi ilə burada bildirişlər üzrə xidmət haqqı tətbiq ediləcəkdir.

Birinci oxunuşda hörmətli həmkarlarımız tərəfindən hər hansı qeyd, təklif olmamışdır. Həmkarlarımızdan ikinci oxunuşda da layihənin dəstəklənməsini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə Təbii ehtiyatlar, energetika və

ekologiya komitəsində də baxılmışdır. Sadiq müəllim, Sizdən xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Komitənin rəyi müsbətdir. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim. Qanun layihəsini əsas kimi səsə qoyacağam. Hörmətli həmkarlar, xatırladım, ikinci oxunuşdur. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Müzakirəyə yazılanlar var. Siyavuş Novruzov. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihəsi vacib olan qanun layihələrindən biridir. Elektron sistemə keçirilməsi, yığılan vəsaitlərin dəqiqliyinin təminatına yeni bir qarantiya verəcəkdir. Hesab edirəm ki, bu, vacib olan elementlərdən biridir. Amma 2 məsələ ilə bağlı burada mən öz fikrimi bildirmək istəyirəm.

Birincisi, cənab Prezidentə öz təşəkkürümüzü bildiririk, 2023–2027-ci illər üzrə Naxçıvanın sosial-iqtisadi inkişafı

ilə bağlı dövlət proqramı ilə əlaqədar Naxçıvanda 2025-ci ildə yeni bir istilik elektrik stansiyasının tikilməsinə sərəncam verdi və aidiyyəti strukturları bura cəlb etdi ki, burada belə bir stansiya tikilsin. Həm də yaşıl enerji ilə bağlı Naxçıvan Muxtar Respublikasında yeni layihələrin həyata keçirilməsi ilə əlaqədar.

Hörmətli Sahibə xanım, qaz təchizatı haqqında bir məsələ bizim seçicilərimizi də düşündürür. Təbii ki, Naxçıvanın qazlaşması var və bir daha yenə cənab Prezidentə təşəkkürümüzü bildiririk, ikinci xətti Türkiyədən gətirərək Naxçıvanın qazla təmin olunmasını həyata keçirir. Lakin burada qiymətlər məsələsində, o cümlədən limit məsələsində, hesab edirəm ki, Naxçıvan Muxtar Respublikası dağlıq, dağətəyi rayonlardır, bunlara yanaşma Aran və Mil, Muğan zonalardan fərqli olmalıdır. Burada qışın müddəti uzundur. Həmçinin şaxta 40 dərəcəyə qalxır. İndi artıq 4 dərəcə, 5 dərəcə şaxtadır. Bu şaxtalı havada, təbii ki, istər-istəməz istiliyə ehtiyac var. İstilikdən də geniş istifadə etmək, təbii ki, maddi tələbatdır, bu pulları ödəməlidir.

Buna görə də, hesab edirəm ki, həm blokada olmasını, həm də digər məsələləri nəzərə alaraq, oraya hansısa limitlərin tətbiq olunmasına ehtiyac var. Xahiş edərdim ki, bizim komitə sədrləri qanunvericiliyimizdə bu məsələlərə gələcəkdə diqqət yetirsinlər. Çünki biz çalışmalıyıq ki, orada yaşayan insanların da istiliklə təminatı tam, yüksək şəkildə həyata keçirilsin. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Biz indi qanun layihəsinə maddələr üzrə münasibət bildirməliyik. Bu layihədə 7 maddə var. Mən onların üçünü bir, dördünü bir səsə qoyacağam. İndi

isə xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi, sağ olun.

Mən indi qalan 4 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz 14-cü məsələdir. Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Əli müəllim, məlumatı özünüz verəcəksiniz. Buyurun, Sizi eşidirik.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli sədr, birinci oxunuş zamanı geniş məlumat vermişdim. Söhbət "yüksəkixtisaslı miqrant" anlayışının Miqrasiya Məcəlləsinə gətirilməsindən gedir. Çıxışlar ümumi miqrasiya problemləri ətrafında olub. Amma qanun layihəsi dəstəklənmişdir. Ona görə ikinci oxunuşda da həmkarlarımı səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Azər müəllim, sizin komitənizdə də baxılıb. Buyurun, bu barədə Siz də məlumat verin.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, qanun layihəsi komitə tərəfindən dəstəklənmişdir. İkinci oxunuşda da komitənin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, ikinci oxunuşdur, bu qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Kimsə çıxış etmək istəyir? Xeyr, görürəm ki, yoxdur. Ona görə səsverməyə keçirik. Maddələr üzrə səs verəcəyik. Qanun layihəsi 2 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.54 dəq.) |
|---|---|

| | |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi, çox sağ olun.

Növbəti məsələmiz Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün Azər müəllim, yenə də mən sözü Sizə verirəm. Buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Qanun layihəsi ilə bağlı birinci oxunuşda məlumat verilmişdir. Bir daha xatırlatmaq istərdim ki, Vergi Məcəlləsində bir sıra mallar üzrə əlavə dəyər vergisi üzrə güzəştlər, azadolma nəzərdə tutulur. Müdafiə və təhlükəsizlik təyinatlı mallar üçün isə əlavə dəyər vergisi üzrə güzəştlərin tətbiqi üçün aidiyyəti dövlət orqanlarının təsdiqedici sənədlər təqdim etməsi tələb olunur. Vergi Məcəlləsində dəyişikliklər nəticəsində bu aidiyyəti qurumların siyahısına Baş Prokurorluq da əlavə olundu.

Bu dəyişikliyin mahiyyəti bundan ibarətdir. Deputat həmkarlarımız tərəfindən qanun layihəsinin ikinci oxunuşda da dəstəklənməsini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, əsas kimi qəbul etməliyik. Buyurun, bu qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---:|
| Lehinə | 120 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 120 |
| Nəticə: Qəbul edildi | |

Əsas kimi qəbul edildi, çox sağ olun.

Müzakirəyə keçirik. Yazılan var. Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. İkinci oxunuşun tələbinə uyğun olaraq, çox vacib və yerində, zamanında atılan addımdır. Çünki bizim hərbi sənaye kompleksimizin daha da möhkəmlənməsi üçün həm istehsal etdiyimiz məhsulların ixracı, həm də idxal etdiyimiz silahların vergidən azad olunması çox vacib amillərdən biridir. Ordumuzun güclənməsinə və ordunun tam şəkildə mövcud yüksək standartlara cavab verməsinə xidmət göstərəcəkdir. Hesab edirəm ki, biz hamımız bunu dəstəkləyirik və səs verəcəyik.

Digər strukturların da bura daxil edilməsi təqdirəlayiqdir. Mən hesab edirəm ki, dəyişiklikdən sonra vergi orqanlarının fəaliyyəti diqqət mərkəzindədir. Hər il may ayında büdcəyə əlavələr gəlir ki, o da vergi orqanlarının işləməsi nəticəsində dövlət büdcəsinə vergi və gömrükdən gələn əlavə vəsaitlər hesabınadır.

Azər müəllim, bir məsələni, bir güzəşti də gələcəkdə ora daxil etməyi xahiş edirəm. Bilirsiniz ki, müharibə veteranının aldığı əmək haqqının 500 manatından vergi tutulmur. Bilirsiniz ki, minimum əməkhaqqı da qalxıbdır.

Bu, çoxdan olan məsələdir. Digər əməkhaqları da qalxıbdır, onların öz əməkhaqları da artıbdır. Neçə illərdir, 500 manat nəzərdə tutulur.Ona görə də bunu hansısa formada min manata və yaxud digər məbləğə çatdırmaq üçün aidiyyəti orqanla məsləhətləşib gələcəkdə bu məsələni nəzərə almağınızı Sizdən xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Biz qanun layihəsinin səsverməsinə keçirik. Maddələr üzrə səs verəcəyik. Layihədə 1 maddə var. Xahiş edirəm, həmin maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 118 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 119 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul

edildi.

Hörmətli həmkarlar, biz sonuncu məsələyə çatdıq. 16-cı məsələmizdir. “Kitabxana işi haqqında”, “Muzeylər haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Mədəniyyət komitəsində baxılmışdır. İndi komitənin sədri hörmətli Polad Bülbüloğluya söz verirəm. Polad müəllim, buyurun.

**Polad Bülbüloğlu,** *Milli Məclisin Mədəniyyət komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, dəyərli həmkarlarım, hörmətli media nümayəndələri. Layihə ilə bağlı birinci oxunuş zamanı tərəfimdən geniş məlumat verilmişdir.

Xatırlatmaq istərdim ki, bu hüquqi sənəd mədəniyyət müəssisələri tərəfindən büdcədənkənar fəaliyyətdən əldə edilən gəlirlərin idarə olunması ilə əlaqədar qanunvericilikdə mövcud ziddiyyətin aradan qaldırılması məqsədi ilə hazırlanmışdır.

İlk oxunuşundan sonra sözügedən layihə ilə bağlı komitəyə hər hansı rəy və təklif daxil olmamışdır. Odur ki, xanım sədr, qanun layihəsinin olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Polad müəllim. Hörmətli həmkarlar, ikinci oxunuşdur, əsas kimi qəbul etməliyik. Xahiş edirəm, bu qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 119 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 120 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Mən indi qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi 2 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini mən ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. İndi isə xəbər verim ki, növbəti iclasımız ayın 29-da olacaq. Sağ olun.

## MÜNDƏRİCAT

27 dekabr 2024-cü il ........................................................... 3

Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

Birinci sessiya
Payız

18-ci cild

27 dekabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  4,0. Sifariş 12. Tiraj 150.